# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 158** **Bakı şəhəri, 15 aprel 2022-ci il**

***"Sığorta ödənişinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 444-VIQD nömrəli Qanununun tətbiqinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2565; 2018, № 12 (II kitab), maddə 2730; 2019, № 7, maddələr 1318, 1334; 2021, № 2, maddə 196, № 3, maddə 279, № 5, maddə 532) ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.2-ci bənddə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada işsiz kimi qeydiyyata alınmasından" sözləri "sığorta hadisəsinin baş verdiyi tarixdən" sözləri ilə əvəz edilsin.

**2.** 4.3-cü bənddə "işsiz kimi qeydiyyata alınmasından" sözləri "sığorta hadisəsinin baş verdiyi tarixdən" sözləri ilə əvəz edilsin.

**3.** 4.10-cu bəndin birinci cümləsində "işsizliyin başlanma-sından" sözləri "sığorta hadisəsinin baş verdiyi tarixdən" sözləri ilə, "35" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin və "işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay sonra" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***